Gülər Sabir qızı Abdullayeva36

# ŞEYX QALİB ŞEİRİNDƏ MƏNA AXTARIŞLARI

Ədəbiyyatın əsas silahi sözdür. Buna görə də ədəbiyyatı söz sənəti adlandırırlar. Bədii ədəbiyyatın gözəlliyi, təsir gücü onun ifadə tərzində əks olunur. Söz müəllif ilə cəmiyyət arasında əlaqə yaradan ən mühüm vasitə rolunu oynayır. Odur ki, dili gözəl bilib ondan yerli – yerində istifadə etmək söz sənətkarlarının əsas vəzifəsidir. Söz o zaman dəyər kəsb edir ki, o müəyyən informasiya yükünə malik olsun. Deməli, hər bir söz daşıdığı informatik yükə görə əhəmiyyətlidir. Sözün kəsb etdiyi informatik yük nə qədər dərin, fəlsəfi mahiyyət daşıyırsa, söz bir o qədər əhəmiyyətli və kəsərli hesab olunur. "Qurani-Kərim"in vəhylə (sözlərlə) nazil olduğunu,"Yasin" surəsinin 82-ci ayəsindəki "kun fə yəkun" ("ol" dedik oldu) kəlamına əsasən dünyanın yaranmasının sözlə bərqərar olması, müqəddəs kitabımızdakı fikirləri əsas tutaraq sözü müqəddəs hesab etmişlər. Bütün bu aləmin məhz "kon" (ol!) kəlməsindən yaranması hamıya məlumdur. "Əl-Bəqərə" surəsinin 31-ci ayəsində, insanın üstünlüyü Allahın ona bütün adları (sözləri) öyrətmiş olmasıyla əlaqələndirilmişdir. Həz. Əlinin belə bir kəlamı var "İnsan öz dilinin arxasında gizlənib. Danışandan sonra onun ağıllı və ağılsız olduğu ortaya çıxır."

Şeyx Qalib yaradıcılığında həmişə təkrarçılığın əleyhinə çıxmış, yeni mənaya, təzə fikir tapıb onu poeziya dilinə, şeir dilinə çevirəyə üstünlük vermişdir. Şair şeirlərinin birində yazır ki, işimiz-gücümüz ancaq könül oğurlayan sevgilinin ağzını düşünməkdir. Marağımız və fikrimiz də söylənməmiş mənalara könül verməkdir. Şair demək istəyir ki, onun beytlərində zahiri məna ilə yanaşı, daha dərin fəlsəfi məna, incə fikirlər vardır və əsl şairin qüdrətini də məhz yeni yazdığı poetik fikirlər sübut edir.

Daima fikri-dəhanı dil-rübadır peşəmiz,
Maniyi-nagöftəyə dil-danədir əndişəmiz.
Vəsfi zülf ü türreyi ataş-ruhəndir peşəmiz,
Maniyi piçidəyə piçidədir əndişəmiz. [1, s.273]

Şeyx Qalib "Hüsn və Eşq" məsnəvisində "təzə ədaya" qadir olduğunu və "xayidə ədaya" (çeynənmiş sözlərə) möhtac olmadığını deməklə, artıq dəfələrlə işlədilmiş, köhnəlmiş ifadələrin yeni şeirlərə gətirilməsinin əleyhinə olduğunu açıqca bildirir. O, yeni fikir və mənaları gizli xəzinə adlandırır. "Əfsunu bikri-fikrimin axır edib əsər", sair gizli məqamları sirli xəzinə kimi açdığını "Açdım tilsimi-mənayi gənci-nihan kimi" deyir. Şeir yazmaq kəlimə mədənindəki gövhəri tapmaqdır. Şair gərək şərabla dolu düşüncə dənizinə daldığı zaman gövhər alıb çıxsın. Şeyx Qalib gövhər dediyi zaman da qaş-gözdən deyil, daha incə və dərin mənalardan bəhs edən şeiri nəzərdə tutur, sözdə məna axtarır. Çünki ustadı Mövlanənin dediyi kimi: "Mənasız söz su üzərinə yazılan yazı kimidir" [2, s.210].

Dəryayi-şərabi-fikrə dalsın,
Anı görəyim ki gövhər alsın.
Gövhər dedigim degildir ol söz,
Kim bir yerə gəlmiş ola qaş göz. [3, s.174]

Şeyx Qalib "Hüsn və Eşq" məsnəvisində yazır ki, sözdən anlayan birinin bəyəndiyi rəngli bir beyt min cahana bədəldir. İkinci beytdə fikrini davam etdirir: "əlindəki qələm daima ona deyir ki, şeiri anlamayan avam xalqın tərifi onun üçün fəlakət, böyük bir əzabdır".

Bir əhli-süxən ki edə təhsin,
Min çarxa dəyər o beyti-rəngin.
Daim bunu der ki əldə xamə,
Afət bana etibari-ammə. [3, s.81]

Orta əsr poeziyasında söz haqqında ibrətamiz, dəyərli informatik fikirlər demək olar ki, bütün sənətkarların yaradıcılığında var. Sənətkarlar sözdən yalnız xoş məqsəd və məramlar üçün istifadə etməyiblər. Sözün qılınc kimi təsirli olması da zaman-zaman insanların düşüncəsindən silinməz izlər buraxıb. Elə buna görədir ki, xalq arasında "gedər xəncəl yarası, getməz dil yarası" kimi deyim formalaşıb. Deməli, söz həm də güclü silahdır. Hələ XIV əsrdə Arif Ərdəbili sözdə od hərarəti, qılınc kəsəri olduğunu görür və odlu sözlərin niyə söz sənətkarının əlini yandırmadığına təəccüblənərmiş. Şairin fikrinə görə söz deyəndə dildən od tökülə bilər, qəlbin odundan dastan yaranır, ən gizli sirləri ancaq odlu sözlər əyan edə bilər: Şair şeirlərini birində deyir: " gizli sirləri gətirmə dilə, od tutar dilin, dönərsən külə" ( 4, 57)

Sözün ilahi hikmətlə əlaqəsi, Allah kəlamı olması haqqında Yunus Əmrə "söz qaradn ağdan degil, yazıb oxumaqdan deyil, bu yürüyən xalqdan deyil, xaliq avazından gəlir", "mənim deyil bu kəlləçi, qüdrət sənin Yunus nəçi" deyirdisə, onun insan ruhu ilə bağlılığı haqqında M.Füzuli belə demişdir:

Söz candır əgər bilirsə insan,
Sözdür ki, deyirlər özgədir can.

Bundan başqa Füzuli yazır: " mən... aləm sədəfində insandan qiymətli bir gövhər görmədim və insan gövhərində isə sözdən şərəfli gövhər tapmadım." Şairin bu fikirləri Şeyx Qalib yaradıcılığında müxtəlif formada səslənsə də, mahiyyətcə eynidir. Şeyx Qalibin sənət aləminin Füzulinin şeir dünyası ilə yaxınlıq təşkil etməsi xüsusi maraq doğurur. Şeyx Qalib divanındakı çoxsaylı beytlərdən başqa bu iki şairin yaratdığı məsnəviləri həm ruh yaxınlığı, həm də poetik deyim tərzi bildirmişdir. Bu iki sənətkarı birləşdirən məqamlardan biri də onların yaradıcılığında olan bəzi ifadələrin üst-üstə düşməsidir. Bu oxşarlığın səbəblərindən biri də odur ki, Şeyx Qalib Füzuli yaradıcılığından kor-koranə bəhrələnməmiş, o dövrün divan poetikası üçün formalaşan ümumi dəyərləri bilmiş və onlardan yaradıcı bəhrələnmişdir. "Divan şairləri istər öz şeirlərini, istərsə də başqa şairlərin şeirlərini poetik baxımdan dəyərləndirmək istədiklərində hər şeydən öncə məzmun, söz, məna və şairlərin bu xüsusdakı bacarıqları üzərində durmuşlar. Şeyx Qalib də eyni fikirləri "Hüsn və Eşq" məsnəvisində vermişdir. Şeyx Qalib "Hüsn və Eşq" məsnəvisinin "Bəhsi-əvvəl dər vücudi-Süxən" ("Sözün varlığı haqqında ilk bəhs") bölməsində göstərir ki, əgər şeir yazmağa, söz deməyə şairin qüdrəti varsa, bu qüdrətin sahibi də var. Qüdrət sahibi isə Allahdır. Sözə feyz

36 AMEA Nizami Gəncəvi adına Ədəbiyyatı İnstitutu Türk xalqları Ədəbiyyatı şöbəsinin dissertantı guler 32114@gmail.com

verən Allahdır və yaradılanların ən mükəmməli olan insan da bu nemətə haqq qazanmış, layiq görülmüşdür. Şair şeir yazmaq üçün Allah vergisi lazım olduğunu-söz söyləməyə "söylətən gərək olduğunu" bildirmişdir:

Məqturə ki müqtədir gərəkdir,
Söylənməyə söyletir gərəkdir.
Feyyazı-süxən Cənabı-Haqdır,
İnsan bu ətaya müstəhaqdır. [3, s.168]

Şeyx Qalib də həm "Hüsn ü Eşq"məsnəvisində, həm də divanında xüsusi olaraq söz, məna, məzmun və ümumi olaraq şeir yazmaq sənəti haqqındakı görüşlərini açıqca ortaya qoymuşdur. Xüsusilə "Hüsn ü Eşq" fantastik və simvolik bir çərçivə içərisində şeirin macərasını anladan poetik bir roman xarakterindədir" [5, s.16]. Şeyx Qalib yaradıcılığında sözün gözəlliyi haqqında beytlərə xüsusi yer vermiş, sözə verilən dəyər, sözün kəsb etdiyi informatik yük haqqında çoxlu ibrətamiz fikirləri var.

Söz bir göhəri-ülvi, Lahut məkanıdır,
Məbdələ məad ol göhərə guşu zəbandır. [1, s.124]

Şair sözü gövhəri-ülvi, yəni müqəddəs, pak inci hesab edir və onun məskəninin qeyblər aləmi olduğunu söyləyir. Əzəli və əbədi olan söz bu varlıq aləminin özüdür, o inci – insan üçün quş dilidir.

Şeyx Qalibə görə, söz, "nəbiyi-mürsəl", Tanrının göndərdiyi müqəddəslərdəndir. Yəni söz müqəddəsdir. Qurani – Kətrimdə deyilir "hərfül-mükədda " hərflər müqəddəsdir. Sözlər də məhs hərflərdən təşkil olunub. Bütün cümlə-aləm ona möhtacdır, onunla bu aləm var olub.

Möhtac ana cümlə xəlqi-aləm
Anınla bulur həyatı adəm. [3, s.161]

Şeyx Qalib yaradıcılığında sözün müqayisə vasitələri müxtəlifdir. Qurani –Kərimdə dəfələrlə adı çəkilən və 12-ci surənin adı onunla bağlı olan "Yusif " surəsi qissələrin ən gözəli anlamını verən "Əhsənül-qissə" adlanır. Həzrəti Yaqub İbrahim (ə.s) nəvəsi olub Kənan ölkəsində yaşayan insanlara göndəlilən peyğəmbər olmuşdur. 12 oğlu olmuş, onlardan ən sevimli oğlu həz. Yusif (ə.s) olmuş, bu da qardaşlrı qəzəbləndirərək Yusifin başına fəlakətin gəlməsinə səbəb olmuşdur. Uzun müddət oğlundan ayrı düşən Yaqub (ə.s) heç kəsə şikayət etməmiş, sıxıntısını, kədər və üzüntüsünü yalnız Allaha ərz etmişdir. Bununla bağlı Qurani-Kərimdə deylir: "Mən dərd-sərimi yalnız Allaha ərz etdim və Allahdan( gələn vəhy ilə) sizin bilməiklərinizi (Yusifin vaxtilə gördüyü yuxunun çin çıxacağını, sizin və mənim ona tənzim edəcəyinizi) bilirəm. (Yusif.12,86) Şeyx Qalib divanında müqayisə olunan vasitələrdən biri də Yusif peyğımbəirin gözəlliyidir. Şair sözün gözəlliyini Yusif peyğəmbərin gözəlliyi ilə müqayisə edir və gözəl sözün gözəl üz kimi müqəddəs olduğunu söyləyir. Şeyx Qalib də divanında Yusif peyğəmbərlə bağlı beytlərə və onun müxtəlif adlarla zikr edildiyini görürük.

Pürhani pirahəni Yusifdən al örnək,
Həm rəngi məhəbbət görün ihvan arasında (6, 43).

Şair qardaşları tərəfindən öldürüldüyü zənn edilən, qanlı köynəyinin atasına göstərməsi əhvalatını poeziya dili ilə "həm rəngi məhəbbət" ifadəsini Yusifin qardaşlarının ona qarşı olan qısqanclığını vermək məqsədi ilə işləməsinə bir işarədir. Yusif qardaşlarının yalanı ilə quyuda atılmış, iftira sözlər üzündən zindana salınmışdır. Biz burada sözün müxtəlif fünksiyaları ilə qarşılaşırıq. Zindana yalan sözlər vasitəsi ilə salınan Yusifin həyatında sözlərin mənfi funksiya daşıdığını görürük. Sonda isə yenə də söz ilə (yuxu yozmaqla) Misir əzizi (başçısı) olmasını bilirik. "Hüsn və Eşq" əsərində də Eşq quyuya– yeraltı dünyaya enir. Yeraltı dünyada Eşqin qarşılaşdığı ilk surət divdir. Müəllif quyuya saldığı Eşqi ilk dəfə məhz nəfsinə qalib gəlmək, onu yenməsi kimi çətin bir sinaqla imtahana çakir. Divə- nəfsinə qalib gələn qəhrəman quyudan çətinliklə, Süxənin köməyi ilə İsmi-Əzəm(Allahın ən böyük adlarından biri) yazılmış bir ipdən tutaraq qurtarır.

Qəsd eyləyəcək, edər nə minnət,
Bir anda ziddi ziddə illət.
Gah olmuş əsiri-çahi-möhnət
Gah olmuş Əzizi-Misri-dövlət. [3, s.161]

Şeyx Qalib "Hüsn və Eşq" məsnəvisində Süxən-söz adlı obraz yaratmış, bu alleqorik qəhrəmanın təsvirində söz haqqında fikirlərini, düşüncələdini vermişdir. Şair əsərindəki obrazlardan biri kimi, sözü bir şəxs olaraq qələmə alır və Süxəni təsvir edərkən sözün ülviyyətini yaradılış hadisəsi vasitəsilə göstərir, dünyadan öncə sözün var olduğunu, sözün yaşca dünyadan daha böyük olduğunu göstərir:

Namı Süxən, əziz zatı,
Məsbuk idi çarxdan həyatı. [3, s.159]

Sözün, səsin dünya yaranmazdan əvvəl belə mövcudluğu haqqındakı fıkirlər Şeyx Qalib məsnəvisində bir daha öz təsdiqini Süxən obrazında tapır.

"Hüsn və Eşq" məsnəvisində Xoşrübanın bütün əməlləri haqqında Süxən qabaqcadan Eşqi xəbərdar etmişdi. Süxən həkim cilidində dəlir və Eşqi Hüsnün sarayına aparır. Süxən məhz həkim cildində görünməsinin təsəvvüf ədəbiyyatında "dərd əhli olmaq", "dərdə mübtəla olmaq" kimi ifadə və deyimlərdə ilahi eşqin həsrətindən dərd əhlinə çevrilmiş sevən aşıq obrazı nəzərdə tutulur. Dərd əhli olan aşıqın dərmana ehtiyacı var. Bu " söz-dərman" müstəqil mənasından çıxaraq, həkimin məlhəmini – "ruhi müalicəni" xatırladır. Qədim təbabət elmində əməli müalicə ilə yanaşı, sözlə ruhi müalicə olduqca geniş işlənmişdir. [7,45.]

Füzuli bir qitəsində sözü-dili yalnız insan üçün nəzərdə tutulmuş bir nemət olaraq göstərir və yazır ki, tutuquşuya təlim keçib ona insan kimi söz deməyi öyrətmək olar. Lakin onun yalnız nitqi, danışığı insana oxşayar, özü yenə də insan olmaz. Yuxarıda da qeyd etdiyimiz kimi Bəqərə surəsinin 31-ci, yəni "Və bütün adları Adəmə öyrətdi" ayəsinə əsasən insanın üstünlüyü Allahın ona danışıq-söz demək qabiliyyəti verməsi ilə əlaqələndirərək şair yazır:

Eyləsən tutiyə tə'lim ədayi-kəlimat,
Nitqi insan olur, əmma özü insan olmaz. [8, s.357]

Təsadüfi deyil ki, Füzuli türkcə divanının dibaçəsində ərəbcə verdiyi qitədə şairn bu ayədən iqtibas etmişdir:

Nuqəddisu mən lovla ianətə fəzlihi,

Lima əlləməl-əsmaə Adəmə külləha.
(O kimsəni müqəddəs sayırıq ki, onun mərhəmətlə yardımı olmasaydı, Adəmə
bütün adları (sözləri) öyrətməzdi) [8, s.26].
Bu ayəyə əsasən insanlar sözü və buna bağlı olaraq şairliyi Allah vergisi,
ilahi istedad olduğunu dərk edirlər . Füzuli qəsidələr divanının dibaçəsində şairlər haqqında yazır: "həqiqətən, insan nəslində peyğəmbərlərdən və övliyadan sonar şairlərdən sadiq tayfa yoxdur" [9, s.17].
Şeyx Qalibin poetik görüşlərində də M.Füzuli ənənələrinin təsiri özünü qabarıq şəkildə göstərir. Füzuli kimi Şeyx Qalib də sözü müqəddəs mənşəli ilahi nemət hesab etmiş, şairliyi Allah vergisi adlandırmışdır. Füzuli şeirdən mənaya, məzmuna üstünlük verdiyi kimi, Şeyx Qalib də şeirdən elmilik və mənalı söz tələb etmişdir. Hər iki şairin yaradıcılığında oxşar məqamların olması onları birləşdirən cəhətlərdəndir. M.Füzulinin qəzəllərində olduğu kimi Ş.Qalibdə də sozün formasına, zahiri mənasına deyil, məzmunu böyük əhəmiyyət kəsb edir. Şeyx Qalibin yaradıcılığında sözün informatik yükü onun formasını geridə qoyacaq dərəcədə dərin təsəvvüfi mənaya malikdir. Onları anlamaq üçün sufizmlə bağlı anlayışları və divan poetikasına bələd olmaq lazımdır.

ƏDƏBİYYAT

1. Şeyh Galib Divanı [hazırlayan: N. Okçu] İstanbul: Türkiye Diyanet Vakfı Yayınları, 2011, 959 s.
2. Eşq pərvanəsi Mövlanə Cəlaləddin Rumi (tərib edən: M.Cəfərov). Bakı: Nurlar, 2013, 264 s.
3. Galip Ş. Hüsnü Aşk [hazırlayanlar: Orhan Okay, Hüseyin Ayan]. İstanbul: Dergah yayınları, 2005, 464 s.
4. Yuzif Seyidov, Samət Əlizadə. Klassik Azərbaycan şairləri söz haqqında.Bakı, Gənclik 1977.s. 57.
5. Galib Ş. Hüsn ü Aşk [hazırlayan: Muhammet Nur Doğan]. İstanbul: Yelkenli, 2008,
6. Şeyh Qalib divanı. (Hayatı, Edebi Kişiliği, Şiirlerinin Umumi Tahlili) Hazırlayan: Naci Okcu, Ankara, 2011, 960 s.
7. Hümmətova X. Yunus Əmrənin "Olur" rədifli şeirində psixoloji hal dəyişməsi. Bakı. 2012. səh.236
8. Füzuli M. Əsərləri. 6 cilddə, I c., Bakı: Şərq-Qərb, 2005, 400 s.
9. Füzuli M. Əsərləri. 6 cilddə, IV c., Bakı:Şərq-Qərb, 2005, 344 s.

Açar sözlər: Məhəmməd Füzuli, Şeyx Qalib, söz, məna, məzmun, forma
Key words: Mahammed Fizuli, Sheikh Galib,word, meaning, form, content.
Ключевые слова: Muxammed Физули, Шейх Галиб, слово, смысл, содержание, форма.

Резюме

SEARCH FOR MEANING IN SHEIKH GALIB'S VERSES

İn Sheikh Galib's poetic views clearly traced an influence of Fizuli's traditions.As Fizuli Sh.Galib also considered a word as divine gift from holy origin.Like Fizuli in his verses preferred meaning and essence of word, Sh .Galib also demanded science and wise words from poetry.Existence of resemble moments in creativity of both poets is a feature which united their creativities.As in Fizuli's gazels in Sh.Galib 's verses poetic meaning of word matters more than its form and semantic meaning. In the article, figures and their semantic meaning features of "Husn and Eshg" work by well known poet and wisdom of XVIII century are studied. The work is based purely on "metphoris a bridge of truth" idea.

Summary

ПОИСКИ СМЫСЛА В СТИХАХ ШЕЙХА ГАЛИБА

В поэтических взглядах Ш.Галиба ясно прослеживается влияние традиций М.Физули.Как и Физули и Ш.Галиб считал слово божественным даром святого происхождения. Как Физули в своих стихах отдавал предпочтение смыслу, содержанию слова также и Ш.Галиб требовал от стиха научность и мудрые слова. Существование похожих моментов в творчестве обоих поэтов особенность объединяющяя творчество этих поэтов.Как и в газелях М.Физули также у Ш.Галиба смысл слова имеет большее значение чем форма слова и его лексический смысл. Представленная статья исследует символические образы в месневи «Хусн ве Эшг» выдающегося турецкого поэта и мыслителя XVIII века Шейха Галиба. Это произведение занимает особое место в тасаввуфской поэзии тюркской литературы. Данное месневи построено на идее, считающей «аллегорию мостом истины».

RƏYÇİ: dos.L.Ələkbərova